# 400 çadırla qurulan Dünya Dövləti-Osmanlı İmperatorluğu



**Elşən Mirişli**

*Gəncə şəhəri, tarixçi*

**(əvvəli ötən sayımızda)**

## III Səlim.

***III Səlim 28-ci Osmanlı sultanı və 107-ci İslam xəlifəsi idi. Hakimiyyət illəri 7 aprel 1789-29 may 1807-ci illərdir.24 dekabr 1761-ci ildə dünyaya gəlmişdir. Atası 26-cı Osmanlı sultanı III Mustafa, anası isə Mihrişah Sultandır. III Ahmeddən sonra taxta çıxan I Mahmud və III Osmanın övladları olmamış və aradan keçən 40 il müddətində Osmanlı sülaləsində oğlan övladı dünyaya gəlməmişdi. Məhz bu səbəblə Səlimin dünyaya gəlişi bir həftə davam edən şənliklərlə qeyd edilmişdir. Kiçik yaşlarından etibarən dövlət mərasimlərində və rəsmi görüşlərdə iştirak edən Səlim,atasının sahil tərsanələrinə etdiyi təftişlərə tez-tez qatılırdı.***

Atasının vəfatının ardından (21 yanvar 1774) taxta əmisi I Əbdülhəmid çıxdı və 13 yaşındakı qardaşı oğluna yaxşı davrandı. Atasının səltənətində başlayan rus –türk müharibəsi (1768) əmisinin taxta çıxmasından qısa müddət sonra ağır məğlubiyyətlə sonlandı.1774-cü ildə bağlanan Kiçik Qaynarca sülhü ilə müstəqil elan edilən Krım xanlığı çox keçmədən Rusiya tərəfindən ilhaq edildi və işğal prosesini rəsmiləşdirmək məqsədilə tərəflər arasında 8 yanvar 1783-cü ildə sözləşmə imzalandı. Məhz bu sözləşmədə Rusiya tərəfinin tələbi ilə Osmanlı taxtının varisi olaraq Şahzadə Səlimin də imzası alınmış, bunun ardından şahzadənin həm saray, həm də əhali arasındakı mövqeyi güclənmişdir.

1787-1788-ci illərdə eyni anda Rusiya və Avstriya ilə davam edən müharibə Osmanlı İmperatorluğunun əleyhinə davam edirdi. Sultan I Əbdülhəmid məğlubiyyətin ardından iflic keçirərək vəfat etdi. Nəticədə 28 yaşlı Şahzadə Səlim 7 aprel 1789-cu ildə taxta çıxdı. İlk işi isə 15 ildir ki görmədiyi anasını möhtəşəm bir mərasimlə Köhnə saraydan Topqapı sarayına gətirmək oldu.

## Sultan III Səlimin islahatları

***1791-ci ildə Sultan III Səlim islahatların keçirilməsinə dair öz mülahizələri haqqında ali dünyəvi və dini əyanlara sərəncam verdi.Təqdim edilən layihələrin çoxunda əsas diqqət ordunun Avropa qaydasında qurulmasına yönəldilmişdi. Layihələr əsasında Sultan III Səlim islahatların keçirilməsinə dair bir sıra fərmanlar verdi.Bu fərmanlar ümumilikdə "Nizami-cədid",yəni yeni quruluş və ya yeni qayda adı ilə məşhurdur. "Nizami-cədid" 72 maddədən ibarət olmuşdur.***

III Səlim 1792-1793-cü illərdə əməli olaraq islahatlara başladı.Sultan fərmanına əsasən hərbi vəzifəsini yerinə yetirməyən len sahiblərindən timar və ziyamətlər geri alınmalı, Avropa nümunəsində hərbi korpus yaradılmalı,islahatların həyata keçirilməsini vəsaitlə təmin etmək üçün xüsusi kassa təsis edilməli və bəzi vergilərin toplanması həmin kassanın ixtiyarına verilməli idi.İslahatlar isveç və fransız hərbçilərinin rəhbərliyi altında həyata keçirildi.Lakin yeni korpus çox ləng təşkil olundu.1789-cu ildə bu korpusda cəmi 3-4 min əsgər var idi. Donanmanın yenidən təşkili istiqamətində də müəyyən tədbirlər həyata keçirildi.Yeni gəmilər hazırlandı. Qeyri-müsəlman əhali arasında istəyən şəxslərə Avropa tüccarı imtiyazı verilərək xarici ticarət gücləndirildi.Bu şəxslərdən biri də 82 gəmilik bir ticarət donanması qurdu.

Mövcud Mühendishane-i Bahrinin (Dəniz Mühəndislik məktəbi) gücləndirilməsi, qumbaraçı və lağımçı ocalarının qurulması ilə Hərb məktəblərinin açılması (1795), mətbəənin açılması (1797), Üsküdarda böyük ordu qışlalarının inşası əslində bu islahatların hərbi yöndə olduğunu göstərirdi.Bu islahatların nəticəsində dövlət idarəsi hərbiləşdi.

Fransadan kitablar və vəsait gətirildi, məktəblərdə fransız dilinin tədrisi təşkil olundu. Avropada baş verən dəyişikliklərdən xəbərdar olmaq üçün London,Paris və Vyanada daimi səfirliklər açıldı.

III Səlimin göstərişi ilə I Mahmud dövründə açılmış hərbi mühəndislik məktəbinin fəaliyyəti xeyli genişləndirildi. İslahat işləri davam edərkən bəzi yerli əyanların göz yumması əyalətlərdə iğtişaşların artmasına səbəb olmuşdu.Vəhabilərin Məkkə və Mədinəni ələ keçirməsi,burada qətliamlar törətməsi (1806),Balkan yarımadasındakı quldurluq hərəkətləri (1796) və serblərin milli azadlıq hərəkatı (1804) məhz bu dövrə təsadüf edir.

***Fransa inqilabı 1792-ci ildən etibarən bütün Avropanı öz təsiri altına almışdı. Osmanlı İmperatorluğu London (1792), Paris,Berlin və Vyanada (1797) daimi səfirliklərini açmışdı. Fransanın Misirə hücumu (iyul 1798) və qısa zamanda ələ keçirməsi yeni savaşa səbəb oldu. Fransızlar 1802-ci ildə sülh bağlamağa və Misiri tərk etməyə məcbur oldular.Bu isə III Səlimin yeni nizamdakı ordusunun uğuru olaraq görüldü.***

Sultan III Səlim 1805-ci ilin martında ümumi səfərbərlik elan etdi və 20-25 yaşarası bütün gənclər üçün hərbi mükəlləfiyyət tətbiq etməyi təklif etsə də, cəmiyyətdə yaratdığı mənfi əks-sədanın ardından bu fikrindən daşındı.

12 aprel 1807-ci ildə ordu yeni bir rus səfərinə çıxdı. Sədrəzəm İbrahim Paşa və digər önəmli dövlət adamları yeniçərilərlə birlikdə səfərdə idilər. Kösə Musa Paşa və şeyxülislam Ataullah Əfəndi tərəfindən tərtiblənən üsyan ilə (25-29 may 1807) Sultan III Səlim taxtdan salındı.

## IV Mustafa

IV Mustafa 29-cu Osmanlı Padşahı 108-ci İslam xəlifəsi oldu. Hakimiyyət illəri 29 may 1807-28 iyul 1808-ci illərdi. III Sultan Səlim tərəfdarlarını ətrafında toplanmağa başladığı Ruscukdakı ordu Ələmdar Mustafa Paşanın komandanlığı altında paytaxta doğru irəliləməkdə idi.19 iyul 1808-ci ildə İstanbula daxil olan Ələmdar Mustafa Paşa şəhərdəki əmin-amanlığı təmin etdi.Qabaqçı Mustafa Paşa edam edildi.Bu hadisənin ardından başlayan Ələmdar Mustafa Paşanın qısa sədrəzəmliyi dönəmində həbsdə tutulan Sultan Mustafa yenidən taxta çıxarılması üçün gizli yazışmalar aparmışdır.Ələmdar Mustafa Paşanın 3 ay sonra sui-qəsdlə öldürülməsi və ayaqlanan yeniçərilərin saraya yönəlməsinin ardından Sultan IV Mustafa qardaşının II Mahmudun əmriylə dərhal 17 noyabr 1808-ci ildə edam edilmişdir.

## II Mahmud

II Mahmud 30-cu Osmanlı sultanı və 109 –cu İslam xəlifəsidir.II Mahmud öz hakimiyyəti dövründə bir çox islahatlar keçirmişdir.Bir bəla ocağına, yuvasına dönmüş Yeniçəri ordusunun ləğvi haqqında 16 iyul 1826-cı ildə fərman vermişdi. Osmanlı İmperatorluğunda qərbləşmə hərəkatının tərəfdarlarından olmuşdur. Hərbi və tibbi məktəblər onun dövründə açıldığı kimi buxarla işləyən gəmi və çap evi də də onun zamanında Osmanlı Dövlətinə daxil olmuşdu."Təqvimi vəkayi" adlı ilk rəsmi dövlət qəzetini də o açmış, adını da özü qoymuşdu. İlk dəfə olaraq onun dövründə pulsuz məktəb açılmışdı. O illərdə modern sayılan fəs və şalvar o ərəfədə Osmanlı İmperatorluğunda yayılmışdı.

Tam olaraq deyə bilərik ki, Qərb dünyası qarşısında yüz illər boyu dayanmış Osmanlı İmperatorluğunu (Türkiyəni) qərbləşdirmə ilə inkişaf etdirmişdi.

***Ney və tamburda çalmaqla yanaşı, gözəl xət sahibi idi. 30-a qədər mahnısı vardır.Şeirlərini "Adil" ləqəbi ilə yazdı. Adil ləqəbi onun adil olmasının obrazı idi.Xalq tərəfindən çox sevilmişdi. II Sultan Mahmud adında çoxlu hekayələr yaranmış, ədalətə nümunə göstərilmişdi.Tənzimat dövrünü də o hazırlamışdı.***

***Kökləşmiş və dəyişdirilməz sayılan bəzi Osmanlı müəssisələrinin ləğvi haqqında çox böyük cəsarətli fərmanı da II Mahmud vermişdi.Zamanında üsyanlara qarşı da çox qüvvə sərf etmişdi.Mora üyanını yatırmış İstanbuldakı Ortodoks Patrikini də asdırmışdır.***

***Xarici və daxili döyüşlər də onu hər baxımdan yormuşdu.Vərəmə tutulmasında bu hadisələrin də təsiri olduğu söylənmişdir.***

***20 iyul 1784-cü ildə dünyaya gəlmişdir. I Əbdülhəmidin kiçik oğludur. Anası Nəqşidil Sultandır. 28 iyul 1808-ci ildə 24 yaşındaykən taxta çıxmışdır.Hakimiyyəti 31 il 4 gün sürmüşdür.1 iyun 1839-cu ildə vəfat etmişdir.***

**(ardı var)**



3.murad 3.mehmed 1.ahmed 1.mustafa 2.osman(genç) 4.murad

ibrahim 4.mehmed 2.süleyman 2.ahmed 2.mustafa 3.ahmed

*III Səlim 1792-1793-cü illərdə əməli olaraq islahatlara başladı.Sultan fərmanına əsasən hərbi vəzifəsini yerinə yetirməyən len sahiblərindən timar və ziyamətlər geri alınmalı, Avropa nümunəsində hərbi korpus yaradılmalı,islahatların həyata keçirilməsini vəsaitlə təmin etmək üçün xüsusi kassa təsis edilməli və bəzi vergilərin toplanması həmin kassanın ixtiyarına verilməli idi.İslahatlar isveç və fransız hərbçilərinin rəhbərliyi altında həyata keçirildi.Lakin yeni korpus çox ləng təşkil olundu.1789-cu ildə bu korpusda cəmi 3-4 min əsgər var idi. Donanmanın yenidən təşkili istiqamətində də müəyyən tədbirlər həyata keçirildi.Yeni gəmilər hazırlandı. Qeyri-müsəlman əhali arasında istəyən şəxslərə Avropa tüccarı imtiyazı verilərək xarici ticarət gücləndirildi.Bu şəxslərdən biri də 82 gəmilik bir ticarət donanması qurdu*